# Xocalıda körpə səsi, ana laylası...

## Sevanə MƏMMƏDOVA: "Doğma yurdumuzda oğul, vətənə əsgər böyüdürəm..."

**◆ Biz qayıtdıq, Vətən!**










**Qarabağ zəfəri xalqımıza çox qürurlu, sevincli ilklər yaşadıb. Hər ötən gün bu möhtəşəm silsiləyə yeniləri əlavə olunur. Şanlı zəfərimizin beşinci ilində isə elə məhz fevral ayında düz bir qərinəlik həsrətin, nisgilin ardından Xocalıda ilk dəfə yeni körpənin dünyaya göz açması ilə bağlı müjdə yayıldı bütöv Azərbaycana...**

Bu şad xəbər hər birimizin ürəyindən xoş gizilti kimi keçdi, onilliklərdir qəlbimizdə yuva salmış Xocalı yarasının üzərinə sanki narın su çilədi. 2025-ci ilin fevralında Xocalıda eşidilən körpə hayqırışı, bir ananın üzündə yaranan xoşbəxtlik sevinci içimizdə 1992-ci ilin məşum fevralının şaxta-sazağı ilə donaraq buz heykələ çevrilən ağrı-acılı duyğularımızı əritdi, yerini xoş hisslər aldı...

Xocalıda həyat ağacı yenidən pöhrələndi, tumurcuqladı, çiçək açdı, bəhər verdi...

### Tanrının xoş qisməti

"Həyatda özümü ən xoşbəxt hiss etdiyim gün övladımı ilk dəfə qucağıma aldığım, ana olduğum gündü. Təbii ki, hər bir qadının ana sevincinin hədd-hüdudu olmur. Amma mənim sevincim tamamilə başqa, təsviregəlməz idi. Çünki azadlığından sonra Xocalıda doğulan ilk körpənin anası olmaq kimi Tanrının xoş yazısı məhz mənim qismətimə düşmüşdü..."

Bu sözləri "Biz qayıtdıq, Vətən!" rubrikasının budəfəki qonağı, işğaldan azad edildikdən sonra Xocalıda dünyaya göz açan ilk körpənin anası Sevanə Məmmədova fərəhlə dilə gətirdi. 1996-cı il təvəllüdlü Sevanə xanım bizimlə həmsöhbət olduğu zaman danışdı ki, ötən ilin aprelində Xocalı sakini İlqar Məmmədovla ailə qurublar və bu ilin yanvarında Xocalının Ballıca kəndinə köçüblər. Üzərindən az keçdikdən sonra bu diyarda övladlarını qucaqlarına alıblar. Fevralın 4-də doğulan körpəyə babası Mehdinin adını veriblər:

- 33 il əvvəl Xocalıda baş verən faciə hamımızın yaddaşındadır. Uşaq yaşlarımdan hər zaman Xocalıdan çəkilən kadrlara baxırdım, ürəyim ağrıyırdı, orada şəhid olan insanlarımıza, körpələrimizə ağlayırdım... Şükür Allaha ki, Xocalının azadlığını, şəhidlərimizin qisaslarının alındığını gördük. Heç zaman ağlıma gəlməzdi ki, bir gün məhz mən bu yurdda doğulan ilk körpənin anası olaram. Burada övlad, oğul, vətənə əsgər böyüdərəm...

Həyat yoldaşım İlqar Xocalıdan uşaq yaşlarından məcburi köçkün düşsə də, doğulduğu torpağın hər yerini qarış-qarış tanıyır. Bura köçdüyümüz ilk gündən o məni də Xocalı ilə tanış etməyə başladı. Vaxtilə yaşadıqları evi, oxuduğu məktəbi göstərdi, xatirələrini danışdı... Bilirsiniz, burada yaşamaq, bu torpaqda addımlamaq adamda tamamilə fərqli hisslər oyadır. Sanki, özünü möcüzəli bir aləmdə, yaxud röyadaymışsan kimi hiss edirsən... Elə bilirsən ki, bütün bunlar yuxudur, gözünü açsan hər şey yoxa çıxacaq... Amma baxırsan ki, yox, artıq kədərli-qəmli günlər arxada qalıb. Getdikcə Xocalıda, onun kəndlərində işığı, ocağı yanan evlərin sayı artır... Evlərdən gülüş, küçələrdən uşaqların hay-küy səsləri gəlir... Biz də Ballıcada özümüzə isti yuva qurmuşuq.

### Qayıdış, doğuluş, dirçəliş...

Öyrənirik ki, ailənin başçısı İlqar Məmmədov 1980-ci ildə Xocalının Daşbulaq kəndində anadan olub. Onun ailəsi 1988-ci ildə Qarabağda başlayan hadisələr səbəbindən Daşbulaq kəndindən didərgin düşərək Xocalı şəhərinə pənah gətirib, amma burada da dinc yaşamaq qismətləri olmayıb. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə bütün xocalılılar kimi evlərini tərk etməyə məcbur qalan yeddi nəfərlik Məmmədovlar ailəsi - İlqar, ata-anası, iki bacısı və iki qardaşı ilə birlikdə düşmən əlinə keçməmək üçün quruca canlarını götürüb o qarlı qışda meşə, dağ yolları ilə ayaqyalın, başıaçıq zülmlə gəlib Ağdama çıxıblar. Ancaq həmin gün onun ata babası Xocalıda şəhid olub, iki xalası oğlu isə itkin düşüb və bu günə qədər də onlardan heç bir xəbər yoxdur. Eyni zamanda İlqarın şəhid olan babasının nəşi də hələ tapılmayıb. Ağdamdan Tərtərin Talış kəndinə köçən Məmmədovlar ailəsi burada da çox yaşaya bilməyiblər. Kənd erməni işğalına məruz qaldığı üçün yenidən didərgin düşüblər. Məcburi köçkünlük illərində respublikamızın müxtəlif rayonlarında məskunlaşan ailənin yurd həsrəti bir də 2023-cü il sentyabrın 20-də - Xocalının işğaldan azad edilməsi ilə sona yetib.

İxtisasca kəşfiyyatçı olan İlqar Məmmədov Vətən müharibəsinin iştirakçısı, müharibə veteranıdır. Aprel döyüşlərində də iştirak etmiş İ.Məmmədov 44 günlük müharibənin sonuna qədər Suqovuşan, Talış, Ağdərə, Murov istiqamətlərində döyüşlərdə olub.

Körpə Mehdinin atasının da sevinc hisslərini bölüşdük: "Dünyada bundan daha gözəl, sevincli heç nə ola bilməz. Çünki illərdən sonra el-obamıza, yurdumuza döndük, burada övladım dünyaya gəldi. Allaha çox şükür! Bu cür sevinc yaşayacağım heç zaman ağlıma gəlməzdi... Arzum budur ki, bundan sonra Xocalı yalnız xoş günlər yaşasın. Burada vətənpərvər övladlar böyüdüb doğma yurdumuzu canlandıraq".

Bəli, Ballıcada yeni həyata qədəm qoyan, övlad sahibi olan Sevanə və İlqar Məmmədovların ailəsi sevinc içərisindədir. Xocalıda elə bu kiçik ailənin nümunəsində yaşanan sevincin şöləsi isə hər birimizin qəlbinə nur saçır.

Çünki daha Xocalıdan körpəsini bağrına basmış anaların harayı yox, körpəsini bağrına basmış anaların layla səsi gəlir...

*Layla beşiyim, layla,*
*Evim-eşiyim, layla...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 8 mart (№52).- S.10.